# Kitabxanaya "Ekoloji sivilizasiyanın astanasında: yaşıl enerjiyə keçid" adlı kitab hədiyyə edilib




**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminə "Yaradıcı oxucularımız layihəsi" çərçivəsində ekologiyaya, ətraf mühit problemlərinə və "yaşıl enerji"yə həsr olunmuş yeni kitab hədiyyə olunub.**

Planetimizdə iqlim şəraitinin pisləşməsinin qarşısının alınması, dünyanın eloloji təhlükəsizliyi, planetin özəlliyinin qorunması, insan sağlamlığı və ərzaq məhsulları ilə bol təminata kimi taleyüklü hədəflərə yönəlib. "Yaşıl enerji"yə keçid bütün dünyada zərurətə çevrilmişdir. İqlim dəyişmələri ilə mübarizədə vacibdir, bu gün bütün dünyanı narahat edən qlobal problemlərdən biri iqlim dəyişmələri və onun nəticəsində yaranan fəsadların aradan qaldırılmasıdır. Bu məsələlər tanınmış alimlər - Nizami Məmmədov və Sevda Məmmədəliyevanın 13 bölmədən ibarət 3 dildə (Azərbaycan, rus, ingilis) nəşr olunan "Ekoloji sivilizasiyanın astanasında: yaşıl enerjiyə keçid" adlı elmi-populyar kitabda maraqlı formada oxuculara təqdim edilir.

Bu barədə verilən məlumata görə, kitabın müəllifləri qeyd edirlər ki, Azərbaycanda qlobal istiləşmə ilə mübarizədə respublikamızın etibarlı enerji tərəfdaşı və beynəlxalq birliyin məsul üzvü kimi rolunu nümayiş etdirən "yaşıl enerji" layihələri uğurla həyata keçirilir. 2024-cü ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Sammitinə sədrlik edən ölkəmiz bu nüfuzlu tədbiri iqlim dəyişmələrinə qarşı birgə mübarizədə beynəlxalq əməkdaşlığın reallaşdırılması üçün mühüm platforma olaraq dəyərləndirmişdir.

Kitabda Prezident İlham Əliyevin ölkəmizdə bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı qeyd edərək vurğulanıb ki, Azərbaycan öz resurslarından istifadə etməklə və daha "yaşıl gələcəy"ə təşviq etməklə bərpaolunan mənbələrdə lider ola bilər.



Kitabın redaktoru akademik Urxan Ələkbərovdur. Kitab müəlliflər tərəfindən ölkəmizin bir çox kitabxanalarına hədiyyə edilib.

**M.MUSTAFAYEV,**
**"Respublika".**

Respublika .- 2025.- 19 mart (№ 60).- S.15.